## BAŞ REDAKTORDAN

*Bakı Dövlət Universitetinin*
*Kitabxanaçılıq-informasiya*
*fakültəsi mənim bütün şüurlu*
*həyatım, qaçılmaz taleyim,*
*qürur mənbəyimdir.*
***Abuzər Xələfov***

**Hörmətli oxucular!**

2012-ci ilin noyabr ayında Bakı Dövlət Universiteti Kitabxanaçılıq-informasiya fakültəsinin 65 ili tamam olur. Respublikamızda yüksək ixtisaslı peşəkar kitabxanaçı kadrların hazırlanmasında, kitabxanaşünaslığın bir elm kimi formalaşmasında və inkişafında böyük xidmətlərini nəzərə alaraq Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmov fakültənin 65 illik yubileyinin təntənəli şəkildə keçirilməsi haqqında əmr imzalamışdır.

1947/48-ci tədris ilində Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin yanında Kitabxanaçılıq şöbəsi kimi yaranan, 1962-ci ildən müstəqil fəaliyyət göstərən Kitabxanaçılıq-informasiya fakültəsi doğma universitetin yüksək ixtisaslı, böyük elmi potensiala malik kollektivinin, professor-müəllim heyətinin böyük köməyi və qayğısı sayəsində inkişaf etmiş, universitetin ən qabaqcıl bir fakültəsinə çevrilmişdir. Mədəniyyətimizin ayrılmaz tərkib hissəsi olan kitabxanalar üçün yüksək ixtisaslı, peşəkar kadrlar hazırlamaq sahəsində həm ölkə daxilində, həm də beynəlxalq aləmdə müsbət göstəriciləri, tədris və elmi nailiyyətləri ilə fərqlənən yüksək kadr potensialına malik olan bir fakültə kimi formalaşmışdır.

Şöbənin filoloji fakültəsinin yanında təşkil edilməsi tədris prosesinin müvəffəqiyyətli təşkilinə əlverişli şərait yaratmaqla, onun gələcək inkişafı üçün böyük perspektivlər açmasına, yüksək ixtisaslı müəllim kadrları ilə təmin edilməsinə geniş imkanlar yaratdı. 1950-ci illərdə BDU-nun Filoloji fakültəsi böyük bir institutu xatırladırdı. Fakültədə beş şöbə: Azərbaycan dili və ədəbiyyatı, rus dili və ədəbiyyatı, kitabxanaçılıq, jurnalistika, məntiq-psixologiya və incəsənət şöbələri fəaliyyət göstərirdi. Elmi və tədris həyatı çox yüksək səviyyədə olan filologiya fakültəsində dövrümüzün ən görkəmli alimləri dərs deyirdilər. Həqiqətən elmə, təhsilə böyük maraq duyulurdu. Tələbələr elmi yenilikləri daha dərindən öyrənmək üçün səylə çalışır, müəllimlər isə daha keyfiyyətli dərs keçmək üçün sanki bir-biri ilə, sözün yaxşı mənasında, yarışa çıxırdılar.

Kitabxanaçılıq şöbəsinin və 50-ci illərdə bu şöbədə təhsil alan tələbələrin bəxti gətirmişdi ki, bu şöbədə xalqımızın elm korifeyləri, böyük alimləri,

görkəmli ziyalıları, akademiklərindən: M.Arif Dadaşzadə, F.Qasımzadə, Məmmədcəfər Cəfərov, Cəfər Cəfərov, H.Araslı, B.Vahabzadə, Z.İbrahimov, A.Zamanov, professorlardan Mir Cəlal Paşayev, Ə.Soltanlı, Cəfər Xəndan, Məmmədhüseyn Təhmasib, P.Xəlilov, Ə.Qəhrəmanov, Ə.Abdullayev və s. dərs deyirdilər. Məhz respublikamızda son 60 ildə kitabxana işinə rəhbərlik edən peşəkar kitabxana işçiləri və fakültədə müəllim kimi çalışan kitabxanaçılıq-informasiya fakültəsinin müəllimləri bu görkəmli şəxsiyyətlərdən dərs almışlar. Peşəkar kitabxanaçı ixtisasının və kitabxanaşünaslıq elminin fundamentinə qoyulan ilk uğurlar onların sayəsində pərvazlanmışdır.

Mənim bütün şüurlu həyatım bu fakültənin qaynar fəaliyyəti ilə bağlı olmuşdur. 1950-ci ildə BDU-nun filologiya fakültəsinin kitabxanaçılıq şöbəsinə daxil olmuş, 1955-ci ildə həmin şöbəni bitirmişəm. Universiteti müvəffəqiyyətlə bitirdikdən sonra BDU-nun rektoru akademik Y.Məmmədəliyevin əmri ilə Kitabxanaşünaslıq kafedrasında müəllim vəzifəsində saxlanılmışam. Tələbəlik illərini də nəzərə alsaq, 62 ildir Bakı Dövlət Universitetinin doğma divarları arasında müdrikləşmişəm. Bütün gənclik illərimi universitetin tədris və elmi həyatı ilə bağlamış, burada elmlər namizədi, elmlər doktoru alimlik dərəcələrinə, dosent, professor elmi adlarına layiq görülmüşəm. BDU-da işlədiyim müddətdə 25 il fakültə dekanı, 50 il Kitabxanaşünaslıq kafedrasının müdiri, 57 il professor-müəllim vəzifəsində çalışmışam. Kitabxanaçılıq şöbəsinin müstəqil Kitabxanaçılıq fakültəsi kimi təşkilində fəal iştirak etmişəm. Desəm ki, fakültənin canlı tarixiyəm, səhv etmərəm.

Keçən illər ərzində mən ölkəmizdə mədəniyyət və kitabxana işi quruculuğunun tarixi problemləri, kitabxanaşünaslığın nəzəriyyəsi və metodologiyası, ali kitabxanaçılıq-biblioqrafiya təhsili məsələləri, eləcə də kitabxana işi nəzəriyyəsi və bir sıra digər aktual elmi-nəzəri problemlərə dair 30-dan artıq monoqrafiya, dərslik və dərs vəsaiti, 300-dən çox elmi-nəzəri və təcrübi-metodik məqalə yazıb çap etdirmişəm. Mənim ən qədim dövrlərdən zəmanəmizə qədər Azərbaycanda kitabxana işinin tarixini və inkişaf istiqamətlərini hərtərəfli tədqiq etməyim, fundamental monoqrafiyalarla ölkəmizdə bu sahənin bünövrəsini qoymağım mütəxəssislər tərəfindən olduqca yüksək qiymətləndirilmişdir.

Mən 50 ildən artıqdır ki, müntəzəm olaraq Azərbaycanda kitabxanaçılıq təhsilinin nəzəri və metodoloji məsələlərini hazırlayıb tətbiq etməklə də məşğul oluram. Bu istiqamətdə yazıb nəşr etdirdiyim çoxsaylı elmi məqalə və monoqrafiyalarımda, eləcə də elmi məclislərdəki məruzə və çıxışlarımda Azərbaycanda ali kitabxanaçılıq təhsilinin müasir konsepsiyasının əsasını formalaşdırmağa çalışmışam.

Ötən illər ərzində Bakı Dövlət Universiteti Kitabxanaçılıq fakültəsinin məzunlarından 10 nəfərdən çoxu elmlər doktorluğu, 30 nəfərdən çoxu isə fəlsəfə doktorluğu dissertasiyası müdafiə etmiş, onların hamısı Azərbaycan





Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən təsdiq edilmişdir. Bu dissertasiyaların əksəriyyətinin elmi məsləhətçisi və elmi rəhbəri mən olmuşam.

Mən fəxr edirəm ki, respublikamızda fəaliyyət göstərən bütün kitabxanaşünas-biblioqraf və kitabşünas alimlər "Abuzər Xələfov elmi məktəbi"nin yetirməsi olduqlarını həmişə öz məqalələrində və çıxışlarında xüsusi vurğulayırlar. Dövlətimiz kitabxanaçılıq-informasiya sahəsində kadrların hazırlanmasında və kitabxanaşünaslıq elminin inkişafındakı fəaliyyətimi yüksək qiymətləndirmiş, məni "Şöhrət" ordeni ilə təltif etmiş, Əməkdar mədəniyyət işçisi, Əməkdar elm xadimi kimi şərəfli adlara, həmçinin Prezident təqaüdünə layiq görmüşdür. Mənim elm, mədəniyyət və təhsilin inkişafındakı xidmətlərimi nəzərə alan Azərbaycan dövləti, ölkə ictimaiyyəti və Bakı Dövlət Universitetinin kollektivi 70, 75 və 80 illik yubileylərimi böyük təntənə ilə qeyd etmiş, haqqımda monoqrafiya, kitablar və çoxsaylı məqalələr yazılmışdır.

Bu gün Bakı Dövlət Universiteti Kitabxanaçılıq-informasiya fakültəsinin 65 illiyi qeyd olunarkən mən onun yaranması və inkişafında mühüm xidmətləri olan akademik Abdulla Qarayevi, xalq yazıçısı Süleyman Rəhimovu, akademik Şəfahət Mediyevi həmişə minnətdarlıqla xatırlayıram. Onların misilsiz xidmətləri yüksək qiymətə və təqdirə layiqdir. Məhz onların xeyir-duası ilə Bakı Dövlət Universitetində yaradılan Kitabxanaçılıq şöbəsi və müstəqil Kitabxanaçılıq fakültəsi Azərbaycan elminin, mədəniyyətinin, kitabının və kitabxanalarının gələcəyinə açılan işıqlı bir pəncərə idi.

Azərbaycan elminin, təhsilinin və mədəniyyətinin böyük təəssübkeşi olan görkəmli şəxsiyyətlərdən akademik A.Qarayevin, akademik Y.Məmmədəliyevin, akademik Ş.Mehdiyevin, akademik F.Bağırzadənin, dosent Qurban Əliyevin, professor Cəfər Xəndanın, professor M.Mərdanovun, akademik A.Məhərrəmovun səyi nəticəsində Kitabxanaçılıq fakültəsi sonrakı dövrlərdə ona bəslənən bütün ümidləri layiqincə doğrultmuş, kitabxanaçılıq təhsili və elmi sahəsində ən qabaqcıl təhsil və elm mərkəzlərindən birinə çevrilmişdir.

Müstəqillik illərində Bakı Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsi hər cür çətinliyə baxmayaraq öz işini müvəffəqiyyətlə davam etdirmiş, fakültənin yaradıcı kollektivi özünün çoxillik təcrübəsinə arxalanaraq milli ideologiyaya dərindən yiyələnməklə, milli dövlətçilik və Azərbaycançılıq konsepsiyasının qarşıda qoyduğu vəzifələrə, milli ənənələrə söykənməklə yeni tədris proqramları, dərsliklər və dərs vəsaitləri hazırlayıb nəşr etdirməyə başlamışdır. Kitabxanaşünaslıq, Kitabxana resursları və məlumat axtarış sistemləri, Biblioqrafiyaşünaslıq və Kitabşünaslıq və nəşriyyat işi kafedraları yeni cəmiyyət quruculuğu və bazar iqtisadiyyatına keçid şəraiti ilə əlaqədar öz tədris proqramlarını nəzəri və metodik cəhətdən yenidən işləyib təkmilləşdirdilər. Kitabxanaşünaslıq fənləri üzrə 30-dan artıq proqram, biblioqrafiyaşünaslıq fənləri üzrə 27 proqram, kitabşünaslıq və nəşriyyat işi fənləri üzrə

20-dən artıq proqram yenidən işlənib nəşr edildi. Fakültə kollektivi bu dövrdə Azərbaycan dilində ilk dəfə olaraq orijinal milli dərsliklər, dərs vəsaitləri, monoqrafiyalar yazıb çap etdirməyə müvəffəq oldu. Kitabxanaşünaslıq kafedrası üzrə 7 dərslik, 25 dərs vəsaiti, 10 monoqrafiya, Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrası üzrə 12 dərs vəsaiti, 1 monoqrafiya, Biblioqrafiyaşünaslıq kafedrası üzrə 1 dərslik, 6 dərs vəsaiti, Kitabşünaslıq və nəşriyyat işi kafedrası üzrə 4 dərslik, 3 dərs vəsaiti və 3 monoqrafiya nəşr edildi.

Müstəqillik illərində informasiya cəmiyyətinin tələblərinə müvafiq fakültənin adının dəyişdirilib "Kitabxanaçılıq-informasiya fakültəsi" qoyulması təşəbbüsü irəli sürüldü. Bu ideya ulu öndərimiz Heydər Əliyevin fərmanı ilə 1999-cu ildə Bakı Dövlət Universitetinin rektoru təyin edilən, son 12 ildən artıq dövrdə universitetin inkişafında böyük işlər görən, universitetin beynəlxalq nüfuzunun artırılmasına xüsusi xidmətlər göstərən, kitaba və kitabxanaya yüksək qiymət verən akademik Abel Məhərrəmov tərəfindən müsbət qarşılandı. Rektorun təklifi ilə Kitabxanaçılıq fakültəsinin tədris planına "Kitabxana işinin kompüterləşdirilməsinin əsasları", "Kitabxana iqtisadiyyatı", "Kitabxana və informasiya texnologiyası", "Kitabxana marketinqi", "Kitabxana menecmenti" və s. kimi tamamilə yeni fənlər daxil edildi. Bundan sonra rektor Kitabxanaçılıq fakültəsinin "Kitabxanaçılıq-informasiya fakültəsi" adlandırılması haqqında əmr imzaladı. Kitabxanaçılıq-informasiya fakültəsinin qədirbilən kollektivi ona göstərilən bu xeyirxahlığa görə həmişə hörmətli rektorumuz akademik Abel Məhərrəmova minnətdardır.

Akademik Abel Məhərrəmovun Kitabxanaçılıq-informasiya fakültəsinə göstərdiyi əvəzsiz qayğılardan biri isə bu oldu ki, 1999-cu ilin axırlarında rektorun əmri ilə Kitabxanaşünaslıq kafedrasının yanında "Kitabxana işinin kompüterləşdirliməsi elmi-tədqiqat laboratoriyası" açıldı. Bu laboratoriya respublikamızda kitabxana işinin informasiyalaşdırılmasının elmi istiqamətlərini müəyyənləşdirən ilk laboratoriyadır.

Kitabxanaçılıq-informasiya fakültəsi 65 il ərzində şərəfli inkişaf yolu keçmiş, 6 mindən artıq yüksək ixtisaslı peşəkar kitabxanaçı-informasioloq kadrları hazırlamışdır. Yüksək ixtisas biliyi, intellektual səviyyəsi, peşəkarlığı ilə fərqlənən və doğma Bakı Dövlət Universitetinə başucalığı gətirən bu kadrlar demək olar ki, respublikamızın bütün kitabxanalarında fəaliyyət göstərir, kitabxana işinin müasir informasiya cəmiyyətinin tələbləri səviyyəsində yenidən qurulmasında, əhaliyə kitabxana-informasiya xidmətinin təşkilində yaxından iştirak edir. Respublikamızda fəaliyyət göstərən 11 mindən artıq kitabxanada uğurla işləyən, kitabxana işinə rəhbərlik edən Bakı Dövlət Universiteti Kitabxanaçılıq-informasiya fakültəsinin məzunlarının fəaliyyəti geniş ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir. Kitabxanaçılıq-informasiya fakültəsinin məzunları arasında Xalq şairi, Xalq yazıçısı, Əməkdar elm





xadimi, Əməkdar mədəniyyət işçisi kimi fəxri adlara, Həsən bəy Zərdabi, "Qızıl Qələm" kimi ədəbi mükafatlara layiq görülən, elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcələri alan çoxlu tanınmış şəxsiyyətlər vardır. Onlardan yalnız birinin – bütün çıxışlarında Kitabxanaçılıq-informasiya fakültəsini bitirməsi ilə fəxr edən xalq şairi, sabiq millət vəkili, bizim fəxrimiz Zəlimxan Yaqubun adını çəkmək kifayət edər.

Hazırda Kitabxanaçılıq-informasiya fakültəsində 4 kafedra, 3 tədris laboratoriyası, 1 elmi-tədqiqat laboratoriyası fəaliyyət göstərir. Burada 29 nəfər professor-müəllim heyəti çalışır. Bunlardan 3 nəfəri elmlər doktoru, professor, 17 nəfəri fəlsəfə doktoru, dosentdir.

Fakültənin bakalavriatura pilləsinin əyani və qiyabi şöbələrində 465 tələbə, magistratura pilləsində isə 5 ixtisas üzrə 25 magistrant təhsil alır. Fakültədə doktoranturanın fəlsəfə doktoru və elmlər dokoru pilləsi üzrə 6 nəfər təhsilini davam etdirir.

Müstəqillik illərində Kitabxanaçılıq-informasiya fakültəsinin əsas göstəricilərindən biri də onun maddi-texniki bazasının möhkəmləndirilməsi, tələbə qəbulunun stabilləşdirilməsi olmuşdur.

Fakültə kollektivi respublikamızın son illərdə iqtisadiyyat, elm, təhsil, mədəniyyət və beynəlxalq sahədə qazandığı uğurlarla fəxr edir. Bu uğurların qazanılmasını təmin edən, ulu öndər Heydər Əliyevin bacarıqlı davamçısı olan İlham Əliyevin daxili və xarici siyasətini dəstəkləyir və təhsil sahəsindəki dövlət proqramlarının həyata keçirilməsində, təhsil islahatlarının aparılmasında yaxından iştirak edir.

"Kitabxanaşünaslıq və informasiya" jurnalının Kitabxanaçılıq-informasiya fakültəsinin 65 illik yubileyinə həsr olunmuş xüsusi nömrəsinin hazırlanması Bakı Dövlət Universitetinin rektoru akademik A.M.Məhərrəmovun imzaladığı əmrdə nəzərdə tutulan tədbirlərdən biridir. Jurnalda fakültənin tarixi, elmi və tədris fəaliyyəti ilə bağlı bir sıra məqalələr toplanmışdır. Əminik ki, jurnalda verilmiş materiallar tədqiqatçılar, müəllimlər, tələbələr, eləcə də ali kitabxanaçılıq təhsili və mədəniyyət tarixi ilə maraqlanan oxucular üçün maraqlı olacaqdır.

**Abuzər Xələfov**
***"Kitabxanaşünaslıq və informasiya" jurnalının baş redaktoru, Əməkdar elm xadimi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, tarix elmləri doktoru, professor***